# TÜRKİYƏ CÜMHURİYYƏTİ BÖYÜK MİLLƏT MƏCLİSİ KİTABXANASI VƏ MÜASİR KİTABXANA XİDMƏTİ

**M.F.NAMAZOV**
*Azərbaycan Respublikası Milli Məslisinin Kitabxanası*

**P.F.KAZIMİ**
*Bakı Dövlət Universiteti*

*Məqalə Türkiyə Cümhuriyyəti Böyuk Millət Məclisi Kitabxanasının yaranması, inkişafı və fəaliyyəti haqqında ümumi təhlili özündə əks etdirir. Burada müasir informasiya cəmiyyəti kontekstində inteqrasiya meyilləri xüsusilə qeyd olunur.*

Türkiyə Cümhuriyyətinin 85 illiyi ilə əlaqədar çap edilmiş "Məclis Kitabxanası" bülleteni Türkiyə parlamentarizmində kitabxana fəaliyyətinin mühüm rolunu məzmunlu şəkildə ifadə edir.

1920-ci ildə Türkiyə Böyük Millət Məclisinin fəaliyyətə başlaması ilə eyni vaxtda Məclis Kitabxanası istifadəyə verilmişdi. Millət vəkili Dr.Mazhar kitabxananın ilk rəhbəri olmuş, Məclis Kitabxanasının ilk fəaliyyət siyasətini müəyyənləşdirərək həyata keçirmişdir. 5 nəfərdən ibarət kitabxana komissiyası təsis olunmuş, I və II Osmanlı məclisinin rəsmi sənədlərindən ibarət 5000 cild kataloq, qəzet, jurnal və digər materiallar kitabxananın fonduna daxil edilmişdi. Müəyyən olunur ki, Məclis Kitabxanası özünə qədərki məclis kitabxanalarının varislik prinsipini qorumuş və ənənələri inkişaf etdirmişdi.

1960-cı ildə istifadəyə verilmiş Məclis Kitabxanasının yeni binası əvvəllər yerləşdiyi binalardan fərqli olaraq Parlament Kitabxanası üçün layihələşdirilmişdir. Xüsusi layihə əsasında tikilmiş Məclis Kitabxanası 2550 kv.metr əraziyə malikdir və onun perspektivdə genişləndirmə imkanları da vardır.

Kitabxana MARK proqramı ilə təmin olunmuş, elektron kataloqu tərtib edilmiş, zəngin kitab və sənədlər fondu formalaşdırılmışdı. Kitabxana ölkə daxilində çap məhsullarının məcburi nüsxələrini alır, xaricdə çap olunan nəşrlərin seçilmiş komplektləşməsini həyata keçirir.

Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin Kitabxanasının kadr təchizatı məsələsi də xüsusi həssaslıqla həyata keçirilir. Kitabxananın müdir vəzifəsini tutmaq üçün mütləq kitabxanaçılıq təhsili almaq və 5 ildən artıq parlamentdə iş təcrübəsinə malik olması tələb olunur. Haazırda kitabxananın yüksək peşəkarlardan ibarət kollektivi formalaşmışdı.

Məclis Kitabxanası 4 istiqamətdə fəaliyyət inteqrasiyası həyata keçirir:

I istiqamət - Avropa Şurası və Avropa parlamentləri ilə informasiya və resurs mübadiləsi.

II istiqamət - Türkdilli respublikaların parlamentləri ilə informasiya və resurs mübadiləsi.

III istiqamət - İslam ölkələri parlamentləri kitabxanaları ilə informasiya və resurs mübadiləsi.

IV istiqamət - Dünya parlamentləri kitabxanaları ilə informasiya və resurs mübadiləsi.

Kitabxana əlaqələrinin genişliyi və əhatəliyi baxımdan unikal fəaliyyət həyata keçirməkdə, İslam ölkələri parlamentlərarası əlaqələr kontekstində də Məclis kitabxanası geniş fəaliyyət göstərməkdədir.

Həyata keçirilən inteqrasiya resurslarının mübadiləsi, qeyd olunan bütün istiqamətlərdə xüsusiyyətlər nəzərə alınaraq həyata keçirilir. Burada hər istiqamət müstəqil şəkildə araşdırma obyekti ola bilər.

Türkdilli respublikalarının parlamentlərarası əlaqələrinin prioritet təşkil etməsi məclis kitabxanalarının da əlaqələrində öz əksini tapmaqdadır. Qarşılıqlı səfərlərin, yazışmaların və resurs mübadiləsinin genişliyi bunu sübut edir. Əlaqələrin inkişaf dinamikası və keyfiyyət dərinliyi bu münasibətlərin yaxın illərdə daha da, genişlənəcəyini iddia etməyə bizə əsas verir.

Türkdilli Respublikalarının Parlament Assambleyasının aprel ayında Astanada keçiriləçək növbəti yığıncağında Parlament Kitabxanaları arasında yeni bir protokolun imzalanması nəzərdə tutulmuşdur. Hazırda həyata keçirilən əməkdaşlıq və informasiya mübadiləsi bu protokolların imzalanmasından sonra yeni hüquqi əməkdaşlıq mərhələsinə qalxacaqdır.

Kitabxananın elmi-tədqiqat şöbəsi 1982-ci ildə yaradılmışdır. Onun əsas tədqiqat obyekti millət vəkillərinin məlumat ehtiyacının öyrənilməsi, sorğuların yerinə yetirilmə dərəcəsi, millət vəkilinin peşəkar fəaliyyətində məlumatlar təminatının rolu problemlərini öyrənməkdən hüquq, ekologiya, beynəlxalq münasibətlər, siyasət və ictimai elmlər sahəsində məlumatın analizi həyata keçirilir. Xarici dilləri bilən peşəkar mütəxəssislər kollektivi formalaşmışdır. Dünaynın müxtəlif istiqamətlərindən daxil olunan məlumat analiz olunur və istifadəyə tövsiyə edilir. Millət vəkillərinin sorğuları əsasında, dövlət əhəmiyyətli və ya dünya gündəmində olan məsələrlə əlaqədar biblioqrafiq və informativ icmalar hazırlanır və hesabatlar verilir.

Mətbuatda və kommunikasiya vasitəsilə ötürülən məlumat kütləsi mütəxəssislər tərəfindən öyrənilir və sistemləşdirilir. Kitabxana elektron resursların xüsusi sistemləşdirilmiş fonduna malikdir. Kitabxana fondunda 300 min nüsxə türkcə və xarici dillərdə olan çap məhsulu saxlanılmaqdadır. Hər il 10-15 min nüsxə çap vahidi və ya elektron resursdan ibarət yeni materiallar xüsusi seçimdən keçməklə kitabxana fonduna daxil edilir.

Kitabxananın hesabatlarından məlum olur ki, Osmanlı dövründən başlayaraq qəbul edilmiş sənədlərin 90%-i elektron formatda hazırlanıb və sistemə daxil edilib. Bu sahədə kitabxananın qabaqcıl təcrübəsi diqqəti cəlb edir və əhəmiyyətlidir.

Kitabxana ilk növbədə millət vəkillərinə geniş mənada kitabxana – informasiya xidməti göstərməkdədir. Bununla yanaşı kitabxananın əsas qaydalarına riayət etmək şərti ilə hər hansı bir vətəndaşa da xidmət göstərilir. Kitabxananın elektron kataloqu və resursları sosial şəbəkələr vasitəsilə kütləvi istehlakçının da istifadəsinə şərait yaradır. Bu baxımdan məclis kitabxanası proqresi xidmət siyasəti həyata keçirməkdədir.

Parlamentlərarası məlumat mübadiləsini həyata keçirən mərkəz funksiyasını artıq parlament kitabxanaları həyata keçirir. Bu məqsədlə vaxtaşırı seminarlar, treninqlər və təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlər həyata keçirilir.

Türkdilli Dövlətlərin Parlamentlər Assambleyası (Türk PA) son illər fəaliyyətini xeyli genişləndirmişdir. Vaxtaşırı keçirilən görüşlər, qəbul edilən rəsmi sənədlər münasibətlərin inkişaf dinamikasını ifadə edir. Yaxın illərdə parlament kitabxanalarının inteqrasiya prosesində yeni addımların atılması ehtimal edilir. ESPRD-nın (Avropa Parlamentlərinin Sənədlərin Araşdırılması və Tədqiqi Mərkəzi) fəaliyyəti göstərməkdədir. Parlament kitabxanalarının direktorları bu mərkəzin müxbiri səlahiyyətində fəaliyyət göstərir və öz dövlətlərini təmsil edir. Azərbaycan Milli Məclisinin kitabxanası bu mərkəzin fəaliyyətində öz təmsilçiliyini təmin etmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin son 20 ildə formalaşmış kitabxanası yalnız ümummilli lider Heydər Əliyevin dövlət başçısı olduğu dövrdə əhəmiyyət daşımağa başladı. Bütünlüklə yenidən formalaşan məclis kitabxanası yeni binaya köçürüldü, kitabxana fondu formalaşmağa başladı, beynəlxalq əlaqələr yaradıldı və qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi həyata keçirildi. Azərbaycan Respublikası Milli Məclisinin də Xalq Cümhuriyyəti dövrünün parlamentarlığı, Sovet hakimiyyəti illərində parlament kitabxanasının ənənələri mövcud olmuş və inkişaf yolu keçmişdir. Bu istiqamətdə fəaliyyətin öyrənilməsi və qiymətləndirilməsi, xüsusilə də parlamentlərarası əlaqələrin həyata keçirilməsində kitabxanaların rolunu öyrənmək maraqı hesab edilə bilər.

Türkiyə Cümhuriyəti Böyük Millət Məclisinin Məclis Kitabxanasının fəaliyyəti öz sahəsində mütərəqqi yenilikləri həyata keçirən bir məktəbdir. Türkdilli Respublikaların Məclis Kitabxanalarının müasir inteqrasiyası fondunda digər məclis kitabxanalarının da fəaliyyətini öyrənmək və müqayisə etmək faydalı olar.

## ƏDƏBİYYAT

*1. Xələfov A.A. XX əsr Türkiyə kitabxanaları // BDU-nun Elmi xəbərləri. 2005.*
*2. Knyaz Aslan. Dünya kitabxanaları tarixi: Dərslik. Bakı, 2010, 448 s.*
*3. Türkiyə Cümhuriyyəti kitabxanasının 85 illiyi. Bulleten. Türkiyə. Ankara, TC BMM kitabxanasının nəşri, 2005.*
*4. www.turka-PA.org*
*5. www.Milli_Meclis.qov.az*
*6. www.tbmm.qov.tr*

## PARLIAMENTARY LIBRARY OF THE REPUBLIC OF TURKEY AND MODERN LIBRARY SERVICES

**M.F.NAMAZOV**
**P.F.KAZIMI**

***SUMMARY***

*Describes creating, building and the modern activity of the Parliamentary Library of the Republic of Turkey and examines the modern integration processes in the information society.*

## ПАРЛАМЕНТСКАЯ БИБЛИОТЕКА ТУРЕЦКОЙ РЕСПУБЛИКИ И СОВРЕМЕННОЕ БИБЛИОТЕЧНОЕ ОБСЛУЖИВАНИЕ

**М.Ф.НАМАЗОВ**
**П.Ф.КАЗЫМИ**

***РЕЗЮМЕ***

*В статье рассматривается создание, формирование и современная деятельность Парламентской библиотеки Турецкой Республики и анализируются современные интеграционные процессы в информАционном обществе.*